Aqrar Xidmətlər Agentliyi

# Qərb Çiçək Tripsi

## (Fraliniella occidentalis)(Pergande)



088-588

axa.gov.az

## Zərərverici haqqında

Yetkin erkək fərd təxminən 1 mm, dişi fərd isə bir qədər böyük olmaqla təxminən 1,4 mm uzunluğundadır. Erkəklər adətən açıq-sarı rəngdə, dişilərin rəngi isə mövsümə görə qırmızımtıl-sarı, tünd qəhvəyiyə qədər dəyişir. Bədənləri nazik və uzunsov, iki cüt uzun qanadlıdır. Qanadların kənarları kirpiklərlə haşiyələnmişdir.

## Mübarizə tədbirləri

Karantin tətbiq edilən zərərli orqanizm olduğundan fitosanitar karantin tədbirlərinə riayət olunmalı, fitosanitar sertifikatı olmayan tinglərin, ştillərin və digər bitki məhsullarının idxalı və ixracı qadağan olunmalıdır. Tədbir kimi, məhsul yığıldıqdan sonra sahə şumlanmalı və ya bellənməli, növbəli əkin sisteminə əməl olunmalı, yüksək sirayətlənmə müşahidə edilən sahələrin dincə qoyulması təmin edilməli, davamlı bitki növ və sortlarından istifadə olunmalıdır.

**Təsiredici maddəsi:** Kimyəvi mübarizə zamanı təsiredici maddəsi Thiamethoxam (250 q/l) olan prepartaların biri ilə istixana şəraitində bitkilərin boyundan asılı olaraq 0,4 və ya 0,8 l/ha məsarif norması nəzərə alınmaqla 1000-2000 l işçi məhlul hazırlanaraq damçı üsulu ilə bitkilərin suvarılması və ya gövdəətrafı torpağın çilənməsi, eyni qayda ilə İmidacloprid (700 q/l) tərkibli preparatların biri ilə 0,4 l/ha normasında suvarma və ya çilənmənin aparılması səmərə verir.



**Yetkin fərd**



**Zədəsi**